

*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    15 may 2019-cu il  № 37 (2354)    Qiyməti 30 qəpik


## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib

### Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər

*Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*



- Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümüdür. Bu gün Azərbaycan xalqı bir daha Ulu Öndərin əziz xatirəsinə hörmət və ehtiramını bildirir.

Azərbaycan xalqı Heydər Əliyevi sevirdi, ona inanırdı, ona həmişə dəstək olurdu. O isə öz həyatını Azərbaycan xalqına həsr etmişdir. Bütün dövrlərdə Heydər Əliyev öz xalqına ləyaqətlə xidmət etmişdir. Həm sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın inkişafı üçün çox böyük fədakarlıq göstərmişdir. Təkcə onu demək kifayətdir ki, sovet dövründə - 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə ən geridə qalmış respublikalardan birindən ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Məhz o illərdə çox möhkəm sənaye potensialı yaradılmışdır, infrastruktur layihələri icra edilmişdir. O layihələr ki, bu gün də müstəqil Azərbaycana xidmət göstərir. Heydər Əliyevin yüksək şəxsi keyfiyyətlərini və Azərbaycanda əldə edilmiş nəticələri nəzərə alaraq, 1982-ci ildə o, Moskvaya dəvət olundu, yüksək vəzifəyə - Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Bu vəzifədə də uğurla çalışırdı, o cümlədən Azərbaycanın inkişafı ilə bağlı verdiyi tapşırıqlar, qəbul etdiyi qərarlar o vaxt da ölkəmizin inkişafına xidmət göstərirdi. Yəni, o, Azərbaycanla daim maraqlanırdı, Azərbaycanda gedən işlərə böyük maraq və dəstək göstərirdi. 1987-ci ildə vəzifədən gedəndən sonra xalqımız, respublikamız üçün problemlər başladı. İki həftə də keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana verilməsi haqqında iddia qaldırdılar. Güclü Heydər Əliyev amili imkan vermirdi ki, bu məsələ bundan əvvəlki dövrdə qaldırılsın. Halbuki, belə cəhdlər, belə meyillər var idi. Ancaq Heydər Əliyev amili buna imkan vermirdi.

Deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanın rəhbərliyində olsaydı, heç şübhəsiz ki, Dağlıq Qarabağ problemi heç vaxt yaranmazdı. O vaxtdan xalqımız üçün böyük problemlər başladı. Dağlıq Qarabağda xüsusi idarəetmə komitəsi yaradıldı və separatçı meyillər geniş vüsət aldı. Pensiyada olan Heydər Əliyev Moskvada yaşayırdı və hər zaman Azərbaycan haqqında düşünürdü. Görürdü ki, respublikada vəziyyət kifayət qədər mürəkkəbdir, xoşagəlməz hallar baş verir, respublika tənəzzülə uğrayır. Hadisələrin gələcək inkişafı göstərdi ki, onun təhlili demək olar tam dəqiq və düzgün idi.

Qanlı Yanvar faciəsindən dərhal sonra Heydər Əliyev öz səsini ucaltdı, öz xalqı ilə birlikdə olduğunu bildirdi və yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransında çıxış edərək sovet rəhbərliyinin bu qəddar aktını qətiyyətlə pislədi. Mən bunun əyani şahidiyəm. Yadımdadır ki, biz daimi nümayəndəliyə gələndə orada çox böyük kütlə var idi, insanlar toplaşmışdılar, çox həyəcanlı idilər. Heydər Əliyevi görəndə onlar canlı dəhliz yaratdılar, kənara çəkildilər və Heydər Əliyev binaya daxil oldu. O vaxt Heydər Əliyev pensiyaçı idi, ona qarşı müxtəlif dövrlərdə qarayaxma kampaniyaları aparılırdı. Ancaq xalqın qəlbində o, lider, görkəmli şəxsiyyət, Azərbaycan xalqının böyük oğlu kimi yaşayırdı. Həmin gün ona göstərilən hörmət əlbəttə ki, həmişə bizim yadımızda qalacaqdır.

O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il var idi. Bəlkə də heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağıla bilər. Ona görə məhz o anda, xalqımız üçün ən ağır anda Heydər Əliyevin bu addımı, bu bəyanatı əlbəttə ki, böyük cəsarət tələb edirdi, bir daha onu göstərirdi ki, o, hər zaman Azərbaycan xalqı ilə bir yerdədir. Ondan sonra bu qanlı cinayətə etiraz olaraq uzun illər ərzində üzvü olduğu kommunist partiyasının sıralarını tərk etdi. Bu da böyük cəsarət tələb edirdi. Təbii ki, ondan sonra ona və onun ailə üzvlərinə qarşı təzyiqlər, təqiblər başlamışdır. Bu təzyiqlərin müxtəlif formaları var idi. Bir sözlə, ona təzyiq etmək və cəzalandırmaq üçün praktiki addımlar atılırdı. Hətta bizdə məlumat var idi ki, onun həbsi ilə bağlı məsələ müzakirə edilirdi.

Bakıya gəldi, ovaxtkı rəhbərlik ona Bakıda yaşamağa imkan vermədi, doğulduğu Naxçıvan Muxtar Respublikasına üz tutdu. O da tarixin hökmü idi. Çünki o vaxt Naxçıvan çox ağır vəziyyətdə idi. Erməni separatçılarının və onların havadarlarının Azərbaycana qarşı məkrli planlarında Naxçıvanın işğalı da var idi. Məhz Heydər Əliyev amili, onun iradəsi, xalqın ona olan inamı Naxçıvanı bu böyük bəladan qurtara bildi. O vaxt onun rəhbərliyi ilə Naxçıvanda səfərbərlik işləri aparılmışdır. Sərhəddə şiddətli döyüşlər gedirdi və Naxçıvan öz torpağını qoruya bildi.

Naxçıvanda digər yaddaqalan hadisə Azərbaycanın tarixində qızıl hərflərlə yazılıb. Məhz Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə Naxçıvan Ali Məclisinin - ovaxtkı Ali Sovetin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı elan edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar qərar ölkə miqyasında qəbul edilsin. Yəni, bu, tarixdir. Bu tarix bir daha göstərir ki, Heydər Əliyev hər zaman Azərbaycan xalqının yanında idi. Xalq ona böyük dəstək verirdi, o da gücü xalqın inamından, məhəbbətindən alırdı.

Azərbaycanda ovaxtkı vəziyyət bizim yadımızdadır. O vaxt - 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş AXC-Müsavat cütlüyü ölkəmizi, gənc, müstəqil dövləti uçuruma aparırdı. Xaos, anarxiya, özbaşınalıq, total böhran hökm sürürdü, talançılıq, rüşvətxorluq baş alıb gedirdi, ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Siyasi, iqtisadi, hərbi böhran gənc dövlətin dayaqlarını sarsıdırdı. Azərbaycan xalqı bu xəyanətkar hakimiyyətə bir il dözə bildi. Bir ildən sonra onlar tarixin arxivinə göndərildi. O vaxt torpaqlarımız işğal altına düşdü. Şuşa, Laçın, Kəlbəcər rayonlarının işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı.

**(Ardı 2-ci səhifədə)**

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib

(Əvvəli 1-ci səhifədə)

Azərbaycan öz inkişaf yolunu Heydər Əliyevin simasında görürdü və müraciət edərək onu dəvət etdi. Heydər Əliyevin o vaxt 70 yaşı var idi, ömrünün böyük hissəsi geridə qalmışdı. Ancaq xalq sevgisi, xalqa olan məhəbbət və böyük məsuliyyət hissi onu bu dəvəti qəbul etməyə sövq etdi. Beləliklə, müstəqil Azərbaycanın müstəqil həyatı başladı. Çünki tam qətiyyətlə deyə bilərəm ki, 1993-cü ilə qədər bizim dövlət müstəqilliyimiz şərti xarakter daşıyırdı. Atributlar var idi, ancaq ölkə müstəqil siyasət apara bilmirdi. 1993-cü il dönüş nöqtəsi oldu. Məhz Heydər Əliyevə xalq tərəfindən göstərilən inam, etimad imkan verdi ki, ölkə bu ağır vəziyyətdə, vətəndaş müharibəsinin fəsadlarından ləyaqətlə çıxa bilsin və belə də oldu. Sabitlik yaradıldı, inkişafa yol açıldı, bütün sahələrdə, ilk növbədə, siyasi sahədə islahatlar icra edilməyə başlandı. Çünki o vaxt Azərbaycanda siyasi sistem hələ formalaşmamışdı. Siyasi sistemin formalaşmasında 1992-ci ildə Naxçıvanda yaradılmış Yeni Azərbaycan Partiyasının rolunu qeyd etməliyəm. Onu da bildirməliyəm ki, özlərini demokrat adlandıran şəxslər o vaxt imkan vermədilər ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Bir qrup vətənpərvər ziyalı Naxçıvana gedərək Heydər Əliyevin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayını keçirdilər.

Heydər Əliyevin təşəbbüsü ilə senzura ləğv edildi. O vaxt Azərbaycanda mətbuat azadlığı yox idi. Senzuranın ləğvi də Ulu Öndərin gələcəyə yönəlmiş baxışlarını tam əks etdirirdi.

Ordu quruculuğu prosesi başlamışdır. Çünki o vaxta qədər nizami ordu yox idi. İqtisadi sahədə çox ciddi islahatlar aparılmışdır, o cümlədən kənd təsərrüfatı sahəsində. O islahatlar ki, bu gün bizim apardığımız islahatlar üçün gözəl zəmin yaradır. Sənaye potensialının inkişafı ilə bağlı önəmli addımlar atılmışdır. Sərmayə qoyuluşu Azərbaycanda artıq bir amil kimi mövcud oldu. "Əsrin kontraktı"nın imzalanması əlbəttə ki, tarixi hadisədir. 1994-cü ilin sentyabrında bu kontraktın imzalanması bu gün müstəqil Azərbaycanın inkişafını böyük dərəcədə təmin etmişdir. Bu kontraktdan əldə edilən gəlirlər ölkəmizin bütün sahələrində özünü büruzə verir - insanların rifah halının yaxşılaşması, ordu potensialının gücləndirilməsi, məcburi köçkünlərin problemlərinin həlli, infrastruktur layihələrinin icrası. Əgər bizim maliyyə imkanlarımız olmasaydı, bu işləri nəyin hesabına görə bilərdik? Bu maliyyə imkanlarını bizə "Əsrin kontraktı" yaratdı. Mən o dövrü yaxşı xatırlayıram. O vaxt Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi digər yoldaşlarla bu məsələ ilə ciddi məşğul idim. Bu kontrakt Azərbaycan üçün ən məqbul şərtlərlə imzalanmışdır və bu, bugünkü reallıqda özünü göstərir. Bu yaxınlarda kontraktın müddəti 2050-ci ilə qədər uzadıldı. Azərbaycan bu kontraktın faydasını görəcəkdir.

Yəni, bu, tarixi hadisə idi, Heydər Əliyevin xalq, bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidmətlərindən biridir. Bu, böyük cəsarət tələb edirdi. Çünki o vaxt bölgədə geosiyasi vəziyyət çox mürəkkəb idi və bu kontraktın imzalanması o qədər də asan məsələ deyildi. Kontraktın imzalanmasından sonra baş vermiş hadisələr onu göstərdi. Ancaq Heydər Əliyevin dəmir iradəsi, qətiyyəti və gələcəyə yönəlmiş addımları bugünkü Azərbaycanın reallıqlarını böyük dərəcədə müəyyən edir.

2003-cü ildə prezident seçkiləri ərəfəsində mən bəyan etmişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasətini davam etdirəcəyəm və xalq Heydər Əliyev siyasətinə səs verdi. O vaxtdan bu günə qədər Azərbaycan böyük və uğurlu yol keçdi, müstəqillik daha da möhkəmləndi. Azərbaycanda sabitlik təmin olunub, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Bizim beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmləndi. Bu gün Azərbaycan dünya miqyasında çox müsbət nüfuza malik olan bir ölkədir. Dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir və bu dəstək BMT Təhlükəsizlik Şurasında keçirilmiş səsvermədə özünü büruzə verdi, 155 ölkə bizi dəstəklədi. Yəni, bu da tarixi nailiyyətimizdir. Bir çox beynəlxalq təşkilatlar bu dövrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətə əsaslanan, bizim mövqeyimizi müdafiə edən qərar və qətnamələr qəbul etmişdir, o cümlədən BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təşkilatlar. Bu, bizim böyük diplomatik və siyasi uğurumuzdur.

Münaqişə ilə bağlı bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız bu torpaqda yaşamış və yaratmışdır. Bu gün bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Heç bir ölkə qondarma rejimi tanımır və əminəm ki, tanımayacaq. Bizim mövqeyimiz ondan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri, Helsinki Yekun Aktı əsasında öz həllini tapmalıdır. Bu, yeganə yoldur və biz bu yolla gedirik və gedəcəyik.

Eyni zamanda, ordunun gücünü artırırıq. Bu gün Azərbaycan beynəlxalq reytinqlərə əsasən dünya miqyasında ordu potensialına görə 50 ölkə arasındadır. Bundan sonra da ordumuzun inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir texnika ilə təchizatı üçün lazımi addımlar atılacaqdır.

Heydər Əliyev hər zaman məcburi köçkünlərin problemləri ilə maraqlanırdı, onlara böyük qayğı, diqqət göstərirdi. O vaxt biz donor təşkilatlardan böyük dərəcədə asılı idik, çünki bizim maliyyə imkanlarımız yox idi. O vaxt böyük işlər görüldü ki, beynəlxalq təşkilatlar Azərbaycana yardım göstərsinlər və bu yardım hesabına müəyyən mənada köçkünlərə şərait yaradıldı. Heydər Əliyev göstəriş verdi ki, ilk neftdən Azərbaycan Dövlət Neft Fonduna daxil olan gəliri məcburi köçkünlərin problemlərinin həllinə istifadə edək. Belə də oldu. Yadımdadır, yağışlı hava idi, gözəl mənzərəli yer idi, Heydər Əliyev özü şəxsən o köçkün qəsəbəsinin açılışını qeyd etdi. Bu gün bu siyasət davam etdirilir. Bu günə qədər yüzdən çox şəhərcik salınıb, 100 minlərlə köçkün yeni evlərlə, mənzillərlə təmin edilib.

Biz bu illərdə digər sosial layihələri uğurla icra etmişik. Son 15 il ərzində əməkhaqqının, pensiyanın 10 dəfəyə yaxın artırılması bizim sosial siyasətimizi göstərir. Biz iqtisadiyyatın şaxələndirilməsi istiqamətində böyük işlər görmüşük. Bu gün bu istiqamətdə işlər davam etdirilir. İqtisadiyyatın neft-qaz amilindən asılılığını azaltmaq üçün praktiki addımlar atılır. Son 15 il ərzində iqtisadiyyat 3 dəfə artıb, çox gözəl biznes mühiti yaradılıb. Dünya Bankının hesablamalarına görə, biz bu göstərici üzrə dünya miqyasında 25-ci yerdəyik. Yəni, islahatlar aparıldı və ölkə qarşısında duran problemlər həll olunmağa başlandı. Əgər biz buraya texnoloji inkişafı əlavə etsək, deyə bilərik ki, bu gün Azərbaycanın 3 peyki var, Azərbaycan kosmik klubun üzvüdür. Bu da böyük nailiyyətdir, tarixi nailiyyətdir. Enerji təhlükəsizliyi sahəsində görün nə qədər böyük işlər görüldü. Heydər Əliyevin öz əlləri ilə təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan artıq 13 ildir ki, fəaliyyət göstərir və ölkəmizə gəlir gətirir. Bu gəlir xalqın rifah halının yaxşılaşmasına, infrastruktur layihələrinin icrasına yönəldilir. Bu gün biz daha böyük enerji layihəsini icra edirik və əminəm ki, uğurla başa vuracağıq. Baxmayaraq ki, açıq dənizə çıxışımız yoxdur, biz Azərbaycanı nəqliyyat mərkəzinə çevirmişik. Bu sahəyə qoyulan sərmayə gələcəyə qoyulan sərmayədir. Çünki bundan sonra Azərbaycan onilliklər, yüzilliklər ərzində tranzit imkanlarından istifadə edərək öz büdcəsini artıracaqdır. Azərbaycana daxil olacaq vəsait, sadəcə, coğrafi vəziyyətdən və tranzit imkanlardan asılı olacaqdır.

Əlbəttə ki, əldə edilmiş nəticələr haqqında çox danışmaq olar. Amma bizim əsas vəzifəmiz gələcəyə baxışımızdır. Biz necə inkişaf etməliyik, hansı yollarla inkişaf etməliyik? Bir şeyi qətiyyətlə deyə bilərəm ki, biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Biz daim irəliyə baxmalıyıq. Dünya dəyişir, bölgə dəyişir, bölgədə yeni çağırışlar meydana çıxır, 15-20 il bundan əvvəl olan vəziyyət bu gün tamamilə fərqlidir. Bölgənin, dünyanın geosiyasi mənzərəsi tam fərqlidir və biz buna hazır olmalıyıq. Ona görə hər bir məsələ ilə bağlı biz çox operativ və çevik fəaliyyət göstərməliyik və göstəririk. Ölkəmizin maraqlarını müdafiə etməliyik. Biz bundan sonra da çalışmalıyıq ki, Azərbaycanı mümkün olan risklərdən qoruyaq, necə ki, bu günə qədər qorumuşuq. Bu, asan məsələ deyil. Çünki hər birimiz yaxşı bilirik ki, dünyada gərginlik çoxalır, beynəlxalq hüququn normaları pozulur, bu normalara məhəl qoyulmur və ölkələr arasında gərginlik artmaqdadır. Ona görə bizim əsas məqsədimiz uğurlu xarici siyasətdən istifadə edərək ölkəmiz üçün mövcud olan və gələcək mümkün riskləri azaltmaqdır. Biz bu istiqamətdə fəal işləyirik. Ancaq deyə bilərəm ki, bu, asan məsələ deyil.

Uzun illərdir ki, Azərbaycanda sabitlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalqın bizim siyasətə göstərdiyi dəstək bizə güc verir və eyni zamanda, imkan verir ki, islahatları dərinləşdirək və Azərbaycanın uğurlu dayanıqlı inkişafını təmin edək.

Sabitlik hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır. Dünyaya, beynəlxalq mənzərəyə baxın. Harada ki, sabitlik pozulur, ölkələr geriyə gedir, idarəolunmaz vəziyyətə düşür, ölkələrdə xoşagəlməz proseslər başlayır, xarici təsir artır, daxili çəkişmələr baş verir və ölkələr öz gələcəyini itirir. Son illər ərzində sabitliyi pozulan ölkələrin bugünkü mənzərəsinə nəzər salın. Nə görəcəyik? Müharibə, qardaş qanının tökülməsi, dağılmış şəhərlər, sıradan çıxmış infrastruktur, iflic vəziyyətə düşmüş sənaye, milyonlarla qaçqın-köçkün, çadır şəhərcikləri, o şəhərciklər ki, biz onlardan 2007-ci ildə xilas olmuşuq. Mən o vaxt seçkiqabağı söz vermişdim ki, 5 il ərzində bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Bunu biz 4 ilə etdik. Yəni, sabitliyin pozulması buna gətirib çıxarır. Hər bir insan bilməlidir ki, sabitlik böyük sərvətdir. Biz bunu çox böyük fədakarlıq göstərərək əldə etmişik.

Yadımıza 1990-cı illərin əvvəllərini salaq. Nələr baş verirdi? Azərbaycan idarəolunmaz vəziyyətdə idi, Azərbaycan müstəqil siyasət apara bilmirdi. Müxtəlif çaxnaşmalar, toqquşmalar ölkəmizi tamamilə iflic vəziyyətə salmışdı. Bundan istifadə edən Ermənistan torpaqlarımızı zəbt etdi. Əgər o vaxt Azərbaycanda sabitlik olsaydı və əgər o vaxt Heydər Əliyev kimi şəxsiyyət Azərbaycanın rəhbəri olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşə bilməzdi. Ona görə biz bilməliyik ki, sabitliyin mövcudluğu Azərbaycanın, gənc nəslin xoşbəxt gələcəyidir. Bir daha demək istəyirəm ki, Azərbaycanda sabitlik möhkəm qorunur. Düzdür, bəzi cəhdlər göstərilir, tam iflasa düçar olmuş bəzi qruplaşmalar, hansılar ki, Azərbaycanı 1990-cı illərdə bərbad vəziyyətə qoydular, həmin dəstələr yenə də nə isə əldə etməyə çalışırlar. İndi onların mübarizə üsulu yalan, şər, böhtan, uydurma, iftiradır. Onların bundan başqa mübarizə üsulu yoxdur və müxtəlif media vasitələrindən istifadə edərək ölkəmizə qara yaxırlar. Həm ölkə daxilində, həm də xaricdə çox eybəcər bir mənzərə yaratmağa çalışırlar. Azərbaycan xalqı onları yaxşı tanıyır. Məhz onlar Azərbaycanı bərbad vəziyyətə qoydular, onlar ölkəmizi dağıtdılar, onlar vətəndaş müharibəsinə start verdilər, qardaş qanı tökdülər. Azərbaycan xalqı heç vaxt imkan verməz ki, antimilli, xəyanətkar ünsürlər Azərbaycanda nə isə əldə etsinlər. Azərbaycan xalqı müdrik xalqdır və hər şeyi yaxşı bilir.

Biz bundan sonra da islahatlar yolu ilə gedəcəyik. Çünki bir daha demək istəyirəm, əldə edilmiş nəticələr, hesab edirəm ki, tarixdə qalmalıdır. Biz bunu bilməliyik ki, haradan gəlmişik, hara çatmışıq. Ancaq bu, tarixdir, biz gələcəyə baxmalıyıq. Bu gün iqtisadi sahədə aparılan islahatlar bütün mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, bizim tərəfdaşlarımız Azərbaycana böyük kreditlər verirlər. Nəyə görə? Ona görə ki, bizə inanırlar. Birinci növbədə görürlər ki, islahatlar səmərə verir, digər tərəfdən Azərbaycanın uğurlu gələcəyinə inanırlar. Əgər belə olmasaydı, milyardlarla dolları Azərbaycana kredit şəklində verərdilərmi? Əlbəttə ki, yox.

İqtisadi sahədə aparılan islahatlar hər bir vətəndaşın həyatında öz əksini tapmalıdır və tapır. Biz əməkhaqlarını, pensiyaları, müavinətləri nəyin hesabına artırırıq? Ona görə ki, daha da səmərəli işləyirik, ona görə ki, büdcə daxilolmaları artır və artacaq. Biz hələ islahatların növbəti mərhələsinin başlanğıcındayıq və bu ilin dörd ayının yekunları deməyə əsas verir ki, çox böyük nəticələr əldə edilir. Bu, bizə imkan verir ki, sosial sahəyə həm maddi təminat, həm də islahatlar baxımından daha böyük diqqət göstərilsin. Dünən, Ulu Öndərin doğum günü ərəfəsində ilk DOST Mərkəzi yaradıldı. Bu da sosial təminat sahəsində bir inqilabdır. Necə ki, vaxtilə "ASAN xidmət" mərkəzi ictimai xidmətlər sahəsində bir inqilab oldu. Artıq 6 milyondan çox insan "ASAN xidmət"dən istifadə edib. Bu, Azərbaycan brendidir, biz indi bu brendi intellektual məhsul kimi başqa ölkələrə ixrac edirik. Ona görə islahatların davam etdirilməsi zəruridir və bunun başqa yolu yoxdur.

Məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi ilə bağlı bu yaxınlarda Fərman imzalanıb. İndi əməli işlər aparılır ki, Fərmanın icra edilməsinə başlansın. Bu da bir ciddi islahat olacaq. İcbari-tibbi sığorta Azərbaycanda pilot layihə kimi icra edilibdir və nəticələr həddindən artıq müsbətdir. Biz bəlkə də heç gözləmirdik ki, bu qədər müsbət nəticələr olacaq. Bu, həm əhali, həm həkimlər tərəfindən, həm də bütün digər sahələrdə yüksək qiymətləndirilir. Biz qabağa baxmalıyıq. Dünya dəyişir, bir daha demək istəyirəm, biz ön sıralarda olmalıyıq və olacağıq da. Çünki üfüqlər açıqdır, siyasətimiz tam aydındır və gələcəyə nikbinliklə baxmaq üçün bütün əsaslar var.

Biz bu gün, eyni zamanda, Heydər Əliyev Fondunun 15 illiyini qeyd edirik. On beş il bundan əvvəl Fond yaradıldı və bu illər ərzində bir çox sahələrdə - mədəniyyət, incəsənət, təhsil və digər sahələrdə çox böyük işlər gördü. Təhsil sahəsində deyə bilərəm ki, Fondun təşəbbüsü ilə başlanan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı ölkə miqyasında geniş vüsət aldı və ondan sonra dövlət xətti ilə 3 min 200-dən çox məktəb tikildi, təmir edildi. Fond səhiyyə sahəsində çox böyük işlər görür və bir çox hallarda bu işlər haqqında heç məlumat da verilmir. Yəni, ictimaiyyət bəlkə də məlumatlı deyil ki, nə qədər böyük işlər görülür, nə qədər insana kömək göstərilir, nə qədər insanı - uşağı, xəstəni Fondun xətti ilə aparılan müalicə normal həyata qaytarıb. Fondun çoxşaxəli fəaliyyəti Azərbaycanı dünyada tanıdır. Fondun dünya miqyasında çox böyük hörməti var. Azərbaycan reallıqlarının dünyaya çatdırılması istiqamətində - bizim musiqimizi, xalçaçılıq sənətini, muğam sənətini, digər mədəniyyət incilərimizi dünyaya çatdırmaq, təqdim etmək üçün Fond çox böyük işlər görür. Kitablar çap olunur, disklər hazırlanır, sərgilər, elmi-praktik konfranslar, simpoziumlar keçirilir. Mən Fondun əməkdaşlarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm və eyni zamanda, bildirmək istəyirəm ki, Fond Ulu Öndərin siyasi irsini təbliğ etmək üçün də böyük işlər görür.

Biz Ulu Öndərin doğum gününü yaxşı nəticələrlə, böyük planlarla qarşılayırıq. Əminəm ki, bütün planlar reallaşacaq. Necə ki, bu günə qədər reallaşıb, bundan sonra da reallaşacaq. Çünki buna bizim iradəmiz də çatır, gücümüz də var, xalq da bizim siyasətimizi dəstəkləyir. Biz bundan sonra yalnız və yalnız uğurlar və qələbələr yolu ilə gedəcəyik. Sağ olun!

# Gəncə və Şəmkirdə Qələbə gününə həsr olunmuş tədbirlər keçirilib



*Faşizm üzərində Qələbənin 74-cü ildönümü ilə bağlı Müdafiə Nazirliyinin tədbirlər planına əsasən, Gəncə və Şəmkir şəhərlərində də 9 May Qələbə Gününə həsr olunmuş tədbirlər keçirilib.*

Gəncə şəhərində ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun məzarı ziyarət olunduqdan sonra bayram tədbirləri Heydər Əliyev Park Kompleksində davam etdirilib. Müharibə veteranlarının, hərbi qulluqçuların, şəhər ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi tədbirdə hərbi orkestr müharibə illərinin mahnı və hərbi marşlarını ifa edib, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin əsgərə məktub layihəsi çərçivəsində Azərbaycan əsgərinə məktublar ünvanlanıb, "Hər şey Azərbaycan əsgəri üçün" sərgisinə baxış olub.

Azərbaycan milli diviziyalarının döyüş bayraqları sərgisində Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Azərbaycan xalqının faşizm üzərində qələbənin qazanılmasında müstəsna xidmətlərindən, Azərbaycanın milli atıcı diviziyalarının tarixindən və şanlı döyüş yolundan danışıb.

Qeyd olunub ki, məhz Berlinə ilk daxil olan 416-cı Azərbaycan Taqanroq milli atıcı diviziyasıdır. Bunu dünyanın bir çox ölkələrinin arxivlərində, muzeylərində saxlanılan foto və sənədlər də bir daha təsdiq edir.

Tədbirdə Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Nizami Bayramov iştirakçıları Qələbə bayramı münasibəti ilə təbrik edib, Azərbaycan əsgərinin də tezliklə Qarabağdan xoş müjdələr gətirərək xalqımıza qələbə sevinci bəxş edəcəyinə əminliyini bildirib. Gəncə ictimaiyyəti adından "N" hərbi hissəsinə hədiyyə təqdim olunub.

Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru İbrahim Məmmədov, Böyük Vətən müharibəsi veteranı Tofiq Babayev, Gəncə hərbi prokuroru polkovnik Əmrah Mehdiyev, polkovnik Rasim Manafov və başqaları çıxış edərək Azərbaycan əsgərinin ata və babalarımızın qəhrəmanlıq nümunələrini təkrarlamağa hər an hazır olduqlarını bildiriblər.

Sonra bütün iştirakçılar səhra əsgər mətbəxində hazırlanan əsgər yeməklərindən ibarət süfrə ətrafında nahar ediblər.

Şəmkir şəhərində keçirilən tədbirdən öncə İkinci Dünya müharibəsi qəhrəmanlarının və qurbanlarının xatirəsinə ucaldılmış "Əbədi Məşəl" abidəsi ziyarət olunub və qarşısına gül dəstələri qoyulub. Şəhərin mərkəzindəki bağda təşkil olunan tədbirdə Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa



Məmmədov, general-mayor Xəqani Cəbrayılov, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani müharibə veteranlarını və arxa cəbhə fədakar əməkçilərini, eləcə də Qarabağ müharibəsinin iştirakçılarını bayram münasibəti ilə təbrik edib, onlara ən səmimi arzularını bildiriblər.

Sonra hərbi orkestr və yaradıcı əsgərlərdən ibarət özfəaliyyət kollektivi tədbir iştirakçılarını hərbi mahnı və marşlarla salamlayıb.

Səhra əsgər mətbəxində hazırlanan yeməklərdən ibarət süfrə ətrafında əyləşən ictimaiyyət nümayəndələri, veteranlar, ziyalılar, gənclərin nümayəndələri, hərbi qulluqçular "Ataların yolu, oğulların yoludur" söhbətinə qoşulublar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## "Anatolian Phoenix-2019" təlimində iştirak edəcək Azərbaycan hərbi helikopterləri Türkiyədədir

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Anatolian Phoenix-2019" beynəlxalq axtarış-xilasetmə təlimlərində iştirak edəcək Azərbaycan Hərbi Hava Qüvvələrinin helikopterləri Konya şəhərinə çatıb.

Hərbi pilotlarımız plana uyğun olaraq təlimə hazırlıq məşqlərinə başlayacaq.

* * *

"Anatolian Phoenix-2019" beynəlxalq axtarış-xilasetmə təlimlərinin başlaması ilə bağlı brifinq keçirilib.



Brifinqdə təlimin məqsədi, ekipajların vəzifələri, qarşıya qoyulan tapşırıqların icrası ilə bağlı təlimatlar şəxsi heyətə çatdırılıb.

Mayın 24-dək davam edəcək hərbi təlimlərdə Azərbaycan HHQ-nin iki Mi-35 və iki Mi-17 helikopteri iştirak edir.

## Cənubi Qafqaz Təhlükəsizlik Forumunda Dağlıq Qarabağ münaqişəsi müzakirə olunub

Tbilisidə keçirilən VI Cənubi Qafqaz Təhlükəsizlik Forumunda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, müzakirələr zamanı regional münaqişələrin həllinin uzanmasının sülhə təhlükə olduğu bildirilib.

Sessiyada "Eurasianet.org" resursunun Qafqaz üzrə redaktoru Coşua Kuçeranın moderatorluğu ilə keçən müzakirələr zamanı haqlı narazılıq yaranıb.

Beynəlxalq Böhran Qrupunun Gürcüstan ofisinin analitiki Olesya Vartanyan və "International Alert" təşkilatının Qafqaz üzrə regional meneceri Sofia Puqsley ekspertlər kimi çıxış ediblər.

Tədbirin onlayn platformasında Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidentinin köməkçisi Anastasiya Lavrina moderatora sualla müraciət edib. A.Lavrina onlayn platformada "Nə üçün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş paneldə Azərbaycanı təmsil edən spiker yoxdur? Sizcə, bu, ədalətli yanaşmadır?" sualını ünvanlayıb.

Qeyd edək ki, Anastasiya Lavrina foruma Azərbaycandan iştirakçı qismində qatılıb.

Moderator bildirib ki, sessiya iştirakçılarını forumun təşkilatçısı Stratpol təşkilatı müəyyən edib və bu məsələyə onlar cavabdehdir.

Stratpol təşkilatının rəsmisi sessiyanın sual-cavab hissəsinə müdaxilə edərək deyib: "Hər il forumun Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sessiyasında həm Azərbaycan, həm də Ermənistandan nümayəndələr iştirak edirlər. Bu il bu formata müəyyən dəyişiklik etməyə qərar verilib".

Müzakirələr zamanı regiondakı digər problemlərə də toxunulub. Lakin həmin münaqişələrlə Dağlıq Qarabağ probleminin paralelləşdirilməsinin yanlış olduğu bildirilib.

## Respublika Veteranlar Təşkilatında faşizm üzərində Qələbənin 74-cü ildönümü qeyd edildi

Respublika Veteranlar Təşkilatında faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibəti ilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə İkinci Dünya müharibəsi veteranları üçün təntənəli bayram tədbiri keçirildi. Tədbirdə Müdafiə Nazirliyinin və Respublika Veteranlar Təşkilatının nümayəndələri, veteranlar, Azərbaycan Dövlət Pedaqoji Universitetinin və Seçenov adına Tibb Universitetinin Bakı filialının tələbələri, Nəriman Nərimanov adına 45 nömrəli tam orta məktəbin müəllim və şagird kollektivi, ictimaiyyət və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etdilər.

Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov tədbiri açaraq hər kəsi 9 may faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibəti ilə səmimi qəlbdən təbrik etdi.

Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək əlamətdar gün münasibəti ilə bütün veteranları təbrik etdi, Böyük Vətən müharibəsində Azərbaycan xalqının həm ön, həm də arxa cəbhədəki fədakarlığından, əvəzsiz xidmətlərindən danışaraq bildirdi ki, İkinci Dünya müharibəsi xalqımızın şanlı tarixinin bir parçasıdır.

Digər çıxış edən veteranlar onlara göstərilən diqqətə və qayğıya görə minnətdarlıqlarını bildirib, keçdikləri döyüş yolu, həyatlarının ən keşməkeşli dövrü olan Böyük Vətən müharibəsi haqqında xatirələrini bölüşdülər. Qələbə bayramını tezliklə işğal altında olan torpaqlarımızda da qeyd edəcəklərinə əminlik ifadə etdilər.

Respublika Veteranlar Təşkilatının inzibati binasının həyətində "N" hərbi hissəsi tərəfindən quraşdırılmış səyyar mətbəx və Böyük Vətən müharibəsi dövrünün hərbi geyimində olan əsgər və zabitlər veteranlara nostalji hisslər yaşadaraq, Qələbə bayramının sevincinə əlavə rəng qatdılar.

Tədbir Həzi Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin Hərbi orkestrinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Musiqi fakültəsinin hazırladığı konsert proqramı və Nəriman Nərimanov adına 45 nömrəli tam orta məktəbin şagirdlərindən Süsən Xubanovanın "Sarı gəlin" rəqsi ilə başa çatdı.

**Baş leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda andiçmə mərasimi keçirildi

*Mayın 10-da Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Əlahiddə Ümumqoşun Ordu, hərbi birliklər, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları, eləcə də digər təminat hərbi hissələrində təşkil edilmiş mərasimlərdə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib və tədbir açıq elan olunub. Sonra gənc əsgərlər təntənəli surətdə Hərbi andı qəbul ediblər. Andiçmə mərasimlərində hərbi hissələrin komandanlığı, şəhid ailələrinin üzvləri, yerli icra orqanları, ictimaiyyət nümayəndələri, veteranlar və əsgər valideynləri iştirak ediblər.*



Əlahiddə Ümumqoşun Orduda keçirilən andiçmə mərasimində gənc əsgərlər Vətənə sədaqət andı içərək Vətənimizin müdafiəsində ayıq-sayıq dayanacaqlarına söz verdilər.

Tədbirdə çıxış edənlər gənc əsgərləri Hərbi andı qəbul etmələri münasibəti ilə təbrik etdilər.

Çıxışlardan sonra Əlahiddə Ümumqoşun Ordu komandanının müavini general-mayor Elman Orucov Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdırdı. Bildirildi ki, beş minillik tarixə malik olan Naxçıvan uğurla inkişaf edir, yeni-yeni nailiyyətlər qazanır. Ötən il Əlahiddə Ümumqoşun Ordunun hərb tariximizə qızıl hərflərlə yazdığı Günnüt zəfəri muxtar respublikamızın iqtisadi inkişafından və müdafiə qüdrətindən xəbər verir. Təbii ki, bütün bunlar da ümummilli lider Heydər Əliyev yoluna sədaqətin, muxtar respublikamızın hərtərəfli inkişafının və xalq-ordu birliyinin təntənəsidir.

Təbrik oxunduqdan sonra şəxsi heyətin tribunanın önündən təntənəli keçidi oldu.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

Hərbi andiçmə mərasimi ictimailəşdiyi üçün uzun müddət ictimaiyyətin, illərlə əsgərin, valideynlərin yaddaşında yaşayır. Bu təntənə ordunun qüdrəti üçündü, ictimaiyyətin orduya inamının daha da dönməzləşməsi üçündü. Əsgər Hərbi andiçmə gününə tarix deyir. Tarixi gündə içilən Hərbi and əsgər üçün daha əlamətdar olur...

Gənc əsgərlər böyük tarixi şəxsiyyət Heydər Əliyevin anadan olduğu gün Hərbi and içdilər. Valideynlər də, ictimaiyyətin nümayəndələri də andiçmə mərasimini bu günün işığında izlədilər. Bu yaz günü göy üzündə bircə əlçim də bulud yoxdu. Buludsuz göy üzü üzə gülür...

Respublikamızın müxtəlif guşələrindən gəlmiş gənc əsgərlərin valideynləri, ictimaiyyət nümayəndələri, müharibə və əmək veteranları, Qarabağ müharibəsi iştirakçıları bir azdan başlanacaq tədbirin intizarındadırlar. Gənc əsgərlər Vətənə sədaqət andı içəcək, Ulu Öndərin formalaşdırdığı orduda Vətənə sədaqətlə xidmət edəcəklər.

Üzlərdə-gözlərdə sevinc, fərəh var. Nizami sırada dayananlara baxanlar qürurludurlar.

Tədbir Ulu Öndərin xatirəsini anımla başladı. Hərbi qulluqçular, hakimiyyət nümayəndələri, valideynlər böyük tarixi şəxsiyyətin abidəsi önünə tər güllər düzdülər.

General-mayor Xəqani Cəbrayılov böyük tarixi gün münasibəti ilə şəxsi heyəti təbrik etdi, fenomen şəxsiyyət olan Heydər Əliyevin Vətənimiz və xalqımız qarşısında əvəzsiz və misilsiz xidmətlərini, böyük quruculuq işlərini diqqətə çatdıraraq bildirdi ki, bütün həyatını azərbaycançılıq ideologiyasına sədaqətlə yaşayan Heydər Əliyevin müdrikliyinin bəhrəsidir ki, ölkəmiz dünyada tərəqqi edən, yeni inkişaf yolu keçmiş ölkə kimi tanınır. "Dahi şəxsiyyətin formalaşdırdığı ordu dövlətçiliyimizin, müstəqilliyimizin qarantı kimi indi dünyada ən güclü ordular sırasındadır. Ulu Öndərin siyasi kursunu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Şəxsi heyətimiz adından bildirirəm ki, Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan tam azad etməyə hazırıq. Əminliklə bildirirəm ki, yaxın vaxtlarda üçrəngli bayrağımız işğaldan azad edəcəyimiz ərazilərdə də dalğalanacaqdır".

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani gənc əsgərləri, valideynləri əlamətdar gün münasibəti ilə təbrik edərək bildirdi ki, Ulu Öndər bütün həyatını xalqının, Vətəninin yüksəlişinə həsr etmişdi. "Onun məqsədi, amalı həmişə Azərbaycan xalqına, Vətənə ləyaqətli xidmət olmuşdur. Bu gün ordu quruculuğu Heydər Əliyevin müəyyənləşdirdiyi kursla uğurla davam etdirilir. İnanırıq ki, "Oğul düşmən çəpəridir" deyən valideynlərin övladları evlərinə qələbə ilinin əsgərləri kimi qayıdacaqlar".

Quba rayon sakini, əsgər babası, ömrünün yarım əsrini müəllimlik peşəsinə həsr etmiş Mirzəcan Mirzəyev bu tarixi gündə nəvəsinin gənc əsgərlər sırasında olmasından qürurlandığını bildirdi, gənc əsgərlərə baba tövsiyələrini verdi: "Siz dünyada ən güclü ordulardan olan Azərbaycan Ordusunun əsgəri olursunuz. İnanıram ki, hər biriniz bu orduya layiq xidmət edəcək, nümunəvi xidmətinizlə əzizlərinizi, komandirlərinizi sevindirəcəksiniz."

Gənc əsgərlər adından çıxış edən Kənan Namazzadə onlara göstərilən böyük etimadı doğruldacaqlarını, Vətənə, xalqa sədaqətlə xidmət edəcəklərini bildirdi.

Gəncə Dövlət Universitetinin dosenti Hüseyn Bəxtiyarlı çıxışında Ulu Öndərin həyat və fəaliyyətinin bugünkü və gələcək nəsillərə həmişə örnək olacağına əmin olduğunu dedi.



Nəriman Nərimanov adına Gəncə şəhər 25 saylı məktəbin şagirdləri vətənpərvərlik ruhunda şeirlər söylədilər.

Andiçmə mərasimi təntənəli keçidlə başa çatdı.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

"N" hərbi hissəsində ənənəvi rituallar yerinə yetirildikdən sonra hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirildi.

Gənc əsgərlər də, valideynlər də bu bayrağın niyə gətirildiyini, bugünkü mərasimlə hansı mahiyyətlə bağlılığını başa düşdülər. Onu da bildilər ki, belə bir təntənədə bayrağa belə bir münasibət gənc əsgərlərin hərbi xidmətə münasibətini daha da dərinləşdirəcəkdir.

Gənc əsgərlər təntənəli surətdə Hərbi andı qəbul etdilər.

Tədbiri giriş sözü ilə açan hərbi hissənin zabiti polkovnik-leytenant Siyavuş Mustafayev gənc əsgərləri Hərbi andı qəbul etmələri münasibəti ilə təbrik edərək bildirdi ki, bu gün Azərbaycan Ordusunda əlamətdar bir gündür. "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümündə ordu həyatına qədəm qoyan gənc əsgərlər Azərbaycan xalqına, dövlətinə sədaqətlə xidmət edəcəklərinə and içdilər. İnanırıq ki, Hərbi anda həmişə sadiq qalaraq, şərəfli xidmətinizlə həmişə Vətənə, xalqa başucalığı gətirəcək, Azərbaycan əsgəri adını qürurla daşıyacaqsınız. Mən sizə hərb işini dərindən öyrənməyi, komandirlərin, zabitlərin əmr və tapşırıqlarını vaxtında, sözsüz və məsuliyyətlə yerinə yetirməyi tövsiyə edirəm".

Zabit sözünə davam edərək dedi:

- Gənc əsgərlərin andiçmə mərasiminin ümummilli lider Heydər Əliyevin doğum günündə qeyd edilməsinin əhəmiyyəti böyükdür. Bu əlamətdar gündə biz Ulu Öndərin ordu quruculuğu sahəsində möhtəşəm xidmətlərini bir daha xatırlamağı, hörmət və ehtiramla yad etməyi özümüzə borc bilirik. Hər birimiz yaxşı bilirik ki, böyük tarixi şəxsiyyət Heydər Əliyev xalqımız üçün böyük və tarixi işlər görmüşdür. "Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir", - deyən Ümummilli Liderimiz hər zaman xalqına xidmət etməkdən şərəf duymuşdur. Bu ikiqat bayram günündə hər birinizi təbrik edir, sizə uzun ömür, cansağlığı arzu edirəm. Dövlətimizin inkişafı naminə Azərbaycan Ordusuna yeni-yeni qələbələr arzulayıram.



**(Ardı 5-ci səhifədə)**

# Azərbaycan Ordusunda andiçmə mərasimi keçirildi

(Əvvəli 4-cü səhifədə)

Gənc əsgərlər adından əsgər Amil Məmiyev bu günün hər bir gənc üçün əlamətdar olduğunu tədbir iştirakçılarının nəzərinə çatdırdı. "Bu gün bizim həyatımızda ən əlamətdar və məsuliyyətli gündür. Bu gün Hərbi andiçməmiz xalqımızın ümummilli lideri Heydər Əliyevin doğum günü ilə eyni günə təsadüf edir. Belə əlamətdar bir gündə Hərbi andı qəbul etmək bizim məsuliyyətimizi daha da artırır. Sizi əmin edirik ki, biz ata-babalarımızın döyüş yolunu şərəflə davam etdirəcəyik. Böyük Qələbə üçün Ali Baş Komandanımızın döyüş əmrinə həmişə hazırıq.

Əsgər valideynləri adından çıxış edən Etibar Seyidov dedi ki, bu təntənə təkcə gənc əsgərin, gənc əsgərin valideynlərinin deyil, ümumən cəmiyyətin həyatında əlamətdardır. "Bu tədbir dövlətçilik üçündür. Çox şadam ki, dövlətçiliklə bağlı belə bir tədbirdəyəm və oğlum da bu tədbirin icraçılarından biridir".

Əsgər anası Mənsurə Zeynalova gənc əsgərlərə Vətənə, dövlətə sədaqətlə, nümunəvi, nizam-intizamlı xidmət etməyi, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş qabiliyyətlərini daim artırmalarını, komandir heyətinin əmr və tapşırıqlarını dəqiq və vaxtında yerinə yetirmələrini, işğal altında olan torpaqlarımızın azadlığı uğrunda döyüşə hər an hazır olmalarını tövsiyə etdi.





**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

Hərbi andiçmə hər bir əsgərin də, valideynin də yaddaşında illərlə yaşadılır. Atalar oğlunun Vətənə sevgi ruhunda böyüməsindən necə qürurlanırlarsa, hərbi xidmətə başlamasından da elə qürurlanırlar. Əsgər atasının andiçmə günü sevincini, fərəhini sezmək çətin olmur.

Gənc əsgərlərin andiçmə mərasimi böyük coşqu ilə keçdi. Valideynlər, ictimaiyyətin nümayəndələri bu təntənəni maraqla, sevgilərlə izlədilər. Çıxışlar onların da qəlbindən keçənlərin ifadəsiydi:

- Son illərdə ordu quruculuğunda həyata keçirilən irimiqyaslı islahatlar ordumuzun şəxsi heyətinin həm döyüş, həm də mənəvi-psixoloji hazırlıq səviyyəsinin nəzərəçarpacaq dərəcədə yüksəldilməsinə səbəb oldu. İndi ordumuz nəinki Cənubi Qafqazda, dünyada ən güclü ordular sırasındadır.

Gənc əsgərlərə ünvanlanan fikirlər də tədbir iştirakçılarının ürəyini təlatümə gətirdi:

- Siz Aprel qələbəsi və Günnüt zəfərini qazananların davamçıları olacaqsınız. Biz buna qətiyyətlə əminik. Əminik ki, hər biriniz nümunəvi xidmətinizlə, zabitlərin əmr və göstərişlərini böyük məsuliyyətlə yerinə yetirməklə istər komandirlərinizin, istərsə də valideynlərinizin, əzizlərinizin ehtiramını qazanacaqsınız. Hər biriniz hərbi hissədə nümunəvi əsgər kimi tanınacaqsınız.

Əsgər atası Zahid Qasımov dedi ki, mən taleyimdən çox razıyam. "Sabiq SSRİ ordusunda xidmət etmişəm. O dövrdəki şəraitlə müstəqil Azərbaycan Ordusundakı şəraiti müqayisə etmək mümkün deyil. Belə bir təchizata dünyanın əksər dövlətlərinin orduları həsəd apara bilər. Mən bu gün Hərbi and içən oğluma da, onun əsgər yoldaşlarına da deyirəm ki, sevin Vətəni, sevdiyiniz Vətənin ordusunu da sevin, bu sevgi nümunəvi xidmətiniz olacaq. Nümunəvi xidmət edin. Onda biz sizinlə həqiqətən qürurlanacağıq".

Əsgər İsmayıl Qasımovun atası Zahid Qasımovun səmimi sözləri gənc əsgərləri də, valideynləri də, hərbçiləri də duyğulandırdı...

Andiçmə mərasimində əsgər anası Sevil Məhərrəmova bildirdi ki, oğlu Elşad da Hərbi and içən gənc əsgərlərin sırasındadır. "Mən də digər analar kimi bu təntənəli günün qürurunu yaşayıram. Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunan möhtəşəm paradlar təsdiqlədi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Mən bir ana olaraq oğlumdan narahat deyiləm, bilirəm ki, ordumuzun şəxsi heyəti üçün çox yüksək şərait yaradılıb. Mənim narahatlığım torpaqlarımızın işğalı ilə bağlıdır. Ali Baş Komandanın döyüş əmriylə döyüşəcək əsgərlərin sırasında oğlum da olacaq. Əminik ki, yaxın vaxtlarda torpaqlarımız işğaldan tamamilə azad ediləcəkdir".

Əsgər anasının bu müqəddəs inamını bütün anaların dönməz inamı bildik.

Bir qədər aralıda nizami düzülüşə diqqətlə baxan anaların həyəcanı seziləndir. Analar gənc əsgərlərin arasında oğlunu arayır, oğlunu tanımaq istəyir. Tanıya bilmir. Eyni səliqəli geyimlilərin hər birini oğul əvəzi doyunca süzür, tədbirdən sonra bağrına basacağı əsgər oğluna deyəcək ki, belə qardaşların var, hamısını oğlum bilirəm.

Hərbi and içmiş gənc əsgərlərin nizami yerişi deyirdi ki, onlar layiqincə xidmət edəcəklər...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

"N" hərbi hissəsində tədbir iştirakçıları həm ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünü, həm də andiçmə mərasiminin sevincini yaşadılar. Tədbirdə hərbçilər, müharibə veteranları, ictimaiyyətin nümayəndələri, əsgər valideynləri və yaxınları iştirak edirdilər. Ulu Öndərin hərbi hissədəki büstü önünə əklil və gül dəstələri qoyuldu, xatirəsi dərin ehtiramla yad edildi. Nümunəvi orkestrin müşayiəti ilə Döyüş bayrağı sıra meydanına gətirildi.

Polkovnik İlqar Lətifov ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən geniş məlumat verərək andiçmə mərasiminin Ulu Öndərin doğum günü ilə bir vaxtda təsadüf etdiyini vurğuladı. Zabit müasir ordumuzun formalaşmasında dahi rəhbərin misilsiz xidmətlərindən danışdı. Polkovnik qeyd etdi ki, Azərbaycan Ordusunun nizami ordu kimi formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. "Dahi şəxsiyyətin siyasi kursunu uğurlu davam etdirən ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordumuz daha da inkişaf edərək regionun ən güclü ordusuna çevrilib. Bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan Ordusu dövlət müstəqilliyimizin ən dəyərli töhfələrindən biridir. Bu gün əlamətdar gün kimi yaddaşlara həkk olunacaq. Siz həm Hərbi andı qəbul edir, həm də müstəqil Azərbaycanın qurucusu, memarı, xalqımızın ümummilli lideri Heydər Əliyevin doğum gününü qeyd edirsiniz. Ulu Öndərin ölkəmizə rəhbərliyi dövründə aparılan



hərbi kadrların hazırlanması və ordu quruculuğu işi artıq öz bəhrəsini verir. Bu gün Azərbaycan regionda ən güclü orduya malik olan dövlətdir."

Gənc əsgərlər ordu sıralarına daxil olaraq dövlətimizə sadiq qalacaqlarına, ərazi bütövlüyümüzün və suverenliyimizin müdafiəsinə hər an hazır olacaqlarına and içdilər.

Polkovnik İlqar Lətifov Hərbi andı qəbul edən əsgərləri və onların valideynlərini təbrik etdi. "Əziz valideynlər, gənc əsgərləri də, sizi də təbrik edir, Vətənə sədaqətli oğul tərbiyə etdiyinizə görə sizə minnətdarlığımızı bildiririk. Onlar Vətənimizin müdafiəçisi kimi müqəddəs vəzifəni yerinə yetirəcək, torpaqlarımızın azadlığı uğrunda döyüşə atılmağa daim hazır olan, bacarıqlı, cəsur əsgərlər kimi formalaşacaqlar."

H.Z.Tağıyev adına qəsəbənin ağsaqqallar şurasının sədri Arif Qafarov dedi ki, biz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi kursunu ürəkdən dəstəkləyir, onun ordu quruculuğunda apardığı böyük islahatları bəyənirik. Əminik ki, belə bir şəraitdə xidmət edən oğullarımız nümunəvi xidmət edəcəklər. Ona da əminik ki, əsgərlərimiz Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan azad edəcəklər.

YAP-nın Sumqayıt şəhər təşkilatı adından Elvin Əlizadə çıxış edərək dedi ki, belə bir təntənəylə Hərbi and içən əsgərlərin nümunəvi xidmət edəcəyinə inanırıq.

Əsgər atası Kazım Kazımov dedi ki, bu gün Hərbi and içənlər komandirlərinin hər bir əmrini böyük məsuliyyətlə yerinə yetirəcəklər.

Çıxış edənlər hər iki əlamətdar gün münasibəti ilə əsgərləri təbrik edərək, ən xoş arzularını çatdırdılar.

Əsgər Elgün Nağıyev gənc əsgərlər adından bu qürurlu gün münasibəti ilə silahdaşlarını və bütün valideynləri təbrik etdi:

- Bu gün bizim həyatımızda ən əlamətdar günlərdən biridir. Vətənə sədaqət andı içərək, ayıq-sayıq xidmət aparacağımıza, hərbi və dövlət sirrini qoruyacağımıza söz verdik. Bu and hər birimiz üçün pozulmaz qanundur. Biz əsgərlər söz veririk ki, Ali Baş Komandanımızın, ordu rəhbərliyinin və xalqımızın bizə göstərdiyi etimadı doğruldacağıq. Dövlət bayrağımızı Qarabağda, Şuşada, Laçında... dalğalandırmaq üçün Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazır olacağıq.

Gənc əsgərlər orkestrin müşayiəti ilə nizami addımlarla tribunanın önündən keçdilər...

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# Cəbhə bölgəsindəki hərbi hissədə İmadəddin Nəsiminin yubileyinə həsr olunmuş tədbir keçirilib



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamının icrasının təmin edilməsi məqsədilə Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, cəbhə bölgəsində yerləşən hərbi hissədə İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunan növbəti tədbir keçirilib.*




Müdafiə Nazirliyinin nümayəndələri, hərbi hissənin şəxsi heyəti və digər qonaqlar iştirak etdiyi tədbirdə nazirliyin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin əməkdaşları dövlət qulluqçuları Zümrüd Səmədova və Saira Rəsulova çıxış edərək dahi Azərbaycan şairinin yaradıcılığından danışıb, onun Şərq xalqlarının ədəbi-fəlsəfi fikir tarixində dərin iz qoyduğunu, eləcə də özünəməxsus yer tutduğunu vurğulayıblar.

Tədbirdə incəsənət nümayəndələri Nəsiminin qəzəllərindən parçalar oxuyublar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Veteranlar bizim qızıl fondumuzdur"

*Qələbə günündən 74 il keçir. Bəşəriyyət üçün dəhşətli, faciəli fəlakətlər dövrü kimi yadda qalan İkinci Dünya müharibəsi həmin gün SSRİ-nin qələbəsi ilə başa çatdı. Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Cəbhədə 600 mindən çox azərbaycanlı iştirak edib, təxminən yarısı geri qayıtmayıb. Müharibədə göstərdiyi igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Böyük Vətən müharibəsi illərinin ağrı-acılarını xalqımız döyüşən orduda da, arxa cəbhədə də çəkib. O illərdə minlərlə azərbaycanlı döyüşçü həlak olub, əsir düşüb. Məzarının yeri bəlli olmayanlar da var. Naməlum əsgərlər sırasında azərbaycanlıların da olduğu şübhəsizdir. Digər xalqlar kimi, Azərbaycan xalqı da bu Qələbəni həmişə könül xoşluğu ilə qeyd edir.*

Böyük Vətən müharibəsində qazanılan Qələbənin 74-cü ildönümü də ölkə səviyyəsində böyük ehtiramla qeyd edildi.



Ordumuza, Vətənin müdafiəsində dayanan zabit və əsgərlərimizə mənəvi dəstəyini heç zaman əsirgəməyən Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibəti ilə Böyük Vətən müharibəsi veteranları ilə görüş keçirdi. Tədbirdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Komitə sədri Abiyat Ağadadaşova faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibəti ilə veteranları və tədbir iştirakçılarını təbrik edərək bildirdi ki, Böyük Vətən müharibəsi veteranlarına ölkə səviyyəsində göstərilən yüksək ehtiram təkcə bu gün üçün deyil, həm də gələcək üçündür və gənc nəslin vətənpərvərlik tərbiyəsinin daha da gücləndirilməsi deməkdir. "Böyük Vətən müharibəsi Azərbaycan xalqının fədakar, qəhrəman, cəsarətli olduğunu bir daha sübut etdi. Qədirbilən xalqımız hər zaman igid oğulları ilə fəxr edib, dövlətimiz isə onlara hərtərəfli diqqət göstərib. İgidlərimizin bir çoxu rəşadətli döyüş yolu keçib. Bu insanlara böyük dəyəri isə məhz ulu öndər Heydər Əliyev verib. Azərbaycan xalqının Ümummilli Lideri onları yüksək qiymətləndirərək deyib: "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğı və hörmətə layiqdirlər". Vətən uğrunda mərdlik göstərib qəhrəmanlıqla döyüşüb həlak olan, eləcə də həmin döyüşlərdə yaralanan insanların həyatı, keçdikləri döyüş yolu bu günün gəncləri üçün böyük örnəkdir."

Komitə sədri çıxışına davam edərək Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin istər Böyük Vətən müharibəsi, istərsə də Qarabağ müharibəsi veteranlarına daim yüksək diqqət və qayğı göstərdiyindən danışdı. Onlara möhkəm cansağlığı və tezliklə Qarabağın işğaldan azad olunması münasibəti ilə zəfər bayramlarını birlikdə qeyd etməyi arzuladı.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının nümayəndəsi, ehtiyatda olan polkovnik Mehman Süleymanov çıxış edərək bu gün hər bir Azərbaycan gəncinin dövlətimizin veteranlara göstərdiyi diqqət və qayğıdan ruhlanaraq istər hərbi xidmət zamanı, istərsə də ondan sonrakı dövrdə döyüşməyə, işğal altında olan torpaqlarımızın azad olunmasında iştirak etməyə hazır olduğunu bildirdi. Böyük Vətən müharibəsində Qələbənin qazanılmasında Azərbaycan xalqının müstəsna xidmətlərindən, son illər Azərbaycanda ordu quruculuğu və Böyük Vətən müharibəsi veteranlarına göstərilən qayğıdan danışdı. "İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında cövlan edən 7 min hərbi təyyarənin yanacaq təchizatında da mühüm rol oynayıb. Azərbaycanlıların faşizm üzərində qələbəyə məhz xalqla ordunun birliyi sayəsində nail olunub. 1945-ci ildə faşizmin məğlubiyyətə uğradılmasında böyük rolu olmuş Azərbaycan xalqı tezliklə erməni faşizmi üzərində də qələbə qazanacaq. Azərbaycan Ordusunun maddi-texniki bazası, müasir silahlarla təminatı, ən əsası şəxsi heyətin yüksək döyüş ruhu, ordu ilə xalqın birliyi sayəsində ordumuz Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin hücum əmri ilə işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır və qadirdir. Əziz veteranlar, sizin hər birinizi qələbə münasibəti ilə təbrik edirəm".

Müharibə veteranlarından İsmayıl Fərəcov, Hilal İbrahimov, Rəsul Xəmmədov, Qalina Luxşina və başqaları hər zaman onlara xüsusi hörmət və qayğı göstərildiyindən danışaraq, dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

Sonda veteranlara qiymətli hədiyyələr təqdim olundu və xatirə şəkli çəkildi.

**Leytenant Mahmud MÖHBALIYEV, "Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 14-də Goranboy rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Oqnyen Yoviç keçiriblər.

***14 may 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şuraabad, Tağıbəyli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Atalarımıza layiq olaq"

## Bilik yarışmasının final mərhələsi keçirildi



Mayın 10-da Həzi Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzində Bakı qarnizonu hərbi hissələri arasında keçirilən hərbi qulluqçuların hərbi vətənpərvərlik ruhunun formalaşdırılması və intellektual səviyyənin inkişafı məqsədi ilə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Atalarımıza layiq olaq" adlı bilik yarışmasının final mərhələsi keçirildi.

Tədbirdə İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin, Həzi Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin nümayəndələri, zabit və əsgərlər iştirak etdilər.

Ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Mərkəzin nümayəndəsi Gülxar Məmmədova bilik müsabiqəsi və müsabiqənin final mərhələsi haqqında geniş məlumat verərək qeyd etdi ki, adı tarixdə qalan insanları "tarixi şəxsiyyət" adlandırırıq. "Bəzən elə insanlar olur ki, onlar sadəcə tarixdə qalmır, tarixin axarını dəyişirlər. Xalqımızın ümummilli lideri Heydər Əliyev kimi. Həyatının mənasını xalqa və dövlətə xidmətdə görən Ulu Öndərimiz millət fədaisi kimi daim böyük ehtiramla, rəğbətlə xatırlanır.

Biz Azərbaycanı sevməyi ulu öndər Heydər Əliyevdən öyrənmişik. "Azərbaycan mənim ürəyimdir, nəfəsimdir", - deyən böyük öndərimiz millətimizin və dövlətimizin əbədiyaşarlığı üçün əvəzsiz bir siyasi xətt, ideoloji irs miras qoydu. Heydər Əliyevin həyat və fəaliyyəti böyük bir məktəbdir və daim öyrənilməlidir".

Bilik müsabiqəsinin final mərhələsi "Mübariz" və "Şahin" komandaları arasında keçirildi. "Şahin" komandası qalib gəldi.

Komandalar fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldılar.

Bilik müsabiqəsi Həzi Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin - gizirlər Ağabala Abdullayevin, Leyla Qəhrəmanovanın və Vüsal Ağayevin Ulu Öndərə həsr olunmuş mahnılardan ibarət konsert proqramı ilə başa çatdı.

**Baş leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu", foto Natiq İSAYEVİNDİR**

# Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti "MILEX-2019" beynəlxalq sərgisində iştirak edəcək

Raket və Artilleriya Qoşunları komandanı general-mayor Zahid Hüseynovun rəhbərlik etdiyi Müdafiə Nazirliyinin nümayəndə heyəti Belarus Respublikasında səfərdədir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan nümayəndə heyəti mayın 15-də Minsk şəhərində başlayacaq 9-cu Beynəlxalq silah və hərbi texnika sərgisi "MILEX-2019", həmçinin sərgi çərçivəsində keçiriləcək hərbi-texniki, müdafiə və təhlükəsizlik məsələləri, ikili təyinatlı texnologiyaların istifadəsi üzrə "MILEX INNOVATIONS-2019" 8-ci beynəlxalq elmi konfransda iştirak edəcək.

Sərgi mayın 18-dək davam edəcək.

# Naxçıvan Qarnizonundan xəbərlər

## Ulu Öndərə həsr olunmuş silsilə tədbirlər keçirilir

Naxçıvan Qarnizonu qoşunlarında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə silsilə tədbirlər keçirilir.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə Naxçıvan Qarnizonunun şəxsi heyəti qarşısında çıxış edən Əlahiddə Ümumqoşun Ordu Komandanının müavini general-mayor Elman Orucov, Heydər Əliyev adına Hərbi Liseyin rəisi polkovnik Məhəmməd Həsənov və digərləri bildiriblər ki, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi, uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində güclü müdafiə qüdrətinə və peşəkar döyüş qabiliyyətinə malik Azərbaycan Ordusu formalaşıb. Ulu Öndərin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərin uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan Respublikası Cənubi Qafqaz regionunda ən güclü orduya malik qüdrətli dövlətdir. Fəxrlə deyə bilərik ki, ordu sıralarında xidmət edən gənclərimiz ümummilli lider Heydər Əliyevin ideyalarına həmişə sadiqdirlər, Vətən, xalq, dövlət qarşısında əsgəri borclarını şərəflə yerinə yetirirlər.

Tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları, Naxçıvan Qarnizonu tam orta məktəbinin və Naxçıvan şəhər 3 nömrəli uşaq musiqi məktəbinin şagirdləri Ulu Öndərə həsr olunmuş şeirlər oxuyub, ədəbi-bədii kompozisiya nümayiş etdiriblər. Yaradıcı əsgərlərdən ibarət bədii özfəaliyyət kollektivləri konsert proqramı ilə çıxış ediblər.

Tədbirin sonunda ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolundan bəhs edən sənədli filmə baxış olub.

## Məktəblilər tarixi yerlərə ekskursiya ediblər

Naxçıvan Qarnizonu tam orta məktəbinin dərslərdə yüksək nailiyyətlər qazanan şagirdləri Ordubad şəhərində fəaliyyət göstərən muzeyləri ziyarət ediblər. Görkəmli şəxsiyyətlərdən Məhəmməd Tağı Sidqinin və Məmməd Səid Ordubadinin Ev Muzeylərində, XVII əsrə aid Qeysəriyyə binasında yerləşən Ordubad rayon Tarix Diyarşünaslıq Muzeyində bələdçilər tərəfindən əlaçı şagirdlərə ətraflı məlumat verilib. Məktəblilər muzeylərdə nümayiş olunan tarixi eksponatlarla yaxından tanış olublar.

## Şagirdlər praktiki məşğələdə iştirak ediblər

Culfa rayonunda fəaliyyət göstərən tam orta məktəblərin şagirdləri təlim mərkəzində keçirilən praktiki məşğələdə iştirak ediblər. Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynayan tədbirdə tank və digər zirehli döyüş texnikalarının, artilleriya qurğularının, tank əleyhinə vasitələrin, snayper tüfənglərinin, müxtəlif atıcı silahların taktiki-texniki xüsusiyyətləri haqqında şagirdlərə ətraflı məlumat verilib. Məktəblilər avtomatın natamam sökülüb yığılmasını, əl qumbaralarından atış çalışmalarını, atıcı silahlardan praktiki atışları yerinə yetiriblər. Sonda səhra mətbəxi ilə tanış olan şagirdlər çöl şəraitində nahar ediblər.

## "Mənim mələklərim" adlı sərgi keçirilib

Naxçıvan Qarnizonu "Nərgiz" uşaq bağçasında balaca fidanların əl işlərindən ibarət "Mənim mələklərim" adlı sərgi keçirilib. Tədbirdə balacalar mahnı, şeir və rəqs nümunələri ilə öz bacarıqlarını nümayiş etdiriblər. Sonda fərqlənənlər mükafatlandırılıblar.

**Leytenant Nəriman NƏCƏFOV, "N" hərbi hissəsi**

# Naxçıvanda hərbi qulluqçular arasında atış birinciliyi keçirilib



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə hərbi qulluqçular arasında atış birinciliyi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 9 millimetrlik PM tapançasından keçirilən atış birinciliyində Naxçıvan Qarnizonu üzrə 72 hərbi qulluqçudan ibarət 24 komanda iştirak edib.

Qadın hərbi qulluqçuların da mübarizə apardığı birincilikdə komanda hesabında 1-ci və 2-ci yerə motoatıcılar, 3-cü yerə isə xüsusi təyinatlılar layiq görülüblər.

Fərdi hesabda 1-ci yerdə polkovnik Tehran Mənsimov, 2-ci yerdə mayor Fərid Süleymanov, 3-cü yerdə isə gizir Elsevər Quliyev qərarlaşıb.

Qadınlar arasında ən yaxşı nəticəni gizir Leyla Babayeva göstərib. Qaliblərə Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərman və diplomlar təqdim edilib.



# “MOİK” futbol komandası birinci divizionun qalibi olub



Mayın 10-da Azərbaycan futbol çempionatının I Divizionunda mövsümün sonuncu 26-cı turunun oyunları keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Lökbatan" Olimpiya İdman Kompleksinin stadionunda keçirilən son görüşdə Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubu (MOİK) "Sabah-2" komandası ilə qarşılaşıb.

Oyun boyu üstünlüyə sahib olan hərbçilər matçın 41-ci dəqiqəsində Raul Yaqubzadənin penaltidən vurduğu qolla qələbə qazanıblar. Beləliklə, mövsüm ərzində keçirdiyi oyunlarda 21 dəfə meydanı qalib kimi tərk edən “MOİK” 65 xalla divizionun çempionu olmaqla Azərbaycan peşəkar futbol klublarının çıxış etdiyi Premyer Liqaya vəsiqə qazanıb.

Oyun başa çatdıqdan sonra Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev və Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev qalibləri medallar və kubokla mükafatlandırıblar.

Qeyd edək ki, “MOİK” son dəfə yüksək liqada 2010-11 illər mövsümündə çıxış edib.




# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyinə həsr olunmuş mini-futbol turniri başa çatdı

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2019-cu il üçün təsdiq etdiyi plana əsasən, mayın 10-da Silahlı Qüvvələrin Hərbi Akademiyasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyinə həsr olunmuş mini-futbol turnirinin bağlanış mərasimi keçirildi.*



Tədbirdə Hərbi Akademiyanın rəhbərliyi və müəllim heyəti, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin rəisi general-mayor Gəray Bağırov, ehtiyatda olan general-mayor Altay Mehdiyev, Azərbaycan Həvəskarlar Futbol Federasiyasının vitse-prezidenti, ehtiyatda olan polkovnik Rahib Əliyev, Federasiyanın baş katibi, Beynəlxalq dərəcəli hakim Füzuli Nəcəfov, bir sıra fəxri qonaqlar, beynəlxalq və respublika dərəcəli hakimlər iştirak edirdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Açılış mərasimində Hərbi Akademiyanın rəisinin müavini general-mayor Azər Əliyev çıxış edərək qonaqları və yarış iştirakçılarını salamladı. Mini-futbol turnirində iştirak edən şəxsi heyətə göstərdikləri əzmkar oyuna görə təşəkkürünü bildirərək dedi: "Bu günlərdə respublikamızın hər yerində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibəti ilə silsilə tədbirlər keçirilir, elmi konfranslar, idman yarışları təşkil olunur. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyası da bu prosesdən kənarda qalmamış, müxtəlif tədbirlər keçirməklə Ulu Öndərin şəxsiyyətinə öz ehtiramını və hörmətini ifadə etmişdir. Hərbi Akademiyada keçirilən mini-futbol turniri qeyd olunan tədbirlərdən biridir".

Yarışda Hərbi Akademiyanın səkkiz, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin bir komandası iştirak edibdir. Turnir müddətində biz maraqlı mübarizənin, idman əzmkarlığının şahidi olduq. Onu da qeyd etmək lazımdır ki, belə yarışlar həm də şəxsi heyətin fiziki hazırlığının gücləndirilməsinə, onların mənəvi keyfiyyətlərinin yüksəlməsinə xidmət edir. Ümummilli lider Heydər Əliyevin doğum günü münasibəti ilə ikinci ildir keçirilən mini-futbol turniri ənənə olacaq. Ümidvaram ki, bu turnir gələcəkdə daha çox iştirakçını özünə cəlb edəcək. Turnirdə iştirak edən, mübarizə aparan hər bir şəxsi təbrik edir, onlara həyatlarında və xidmətlərində yeni-yeni uğurlar arzulayıram.

Çıxışlardan sonra turnirin ən yaxşı oyunçusu, bombardiri və qapıçısı adlarına layiq görülən futbolçular fəxri fərmanla təltif edildilər. Yarışların yekun nəticələri hesablandıqdan sonra dördüncü yeri tutmuş II kurs I qrup, üçüncü yeri əldə edən Diplomatiya kursu, ikinci yeri qazanan Xarici Dil və Tərəfdaşlıq Mərkəzi komandalarına medallar təqdim edildi. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyinə həsr olunmuş mini-futbol turnirinin qalibi olan Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin komandası qızıl medalla və kubokla mükafatlandırıldı.

Tədbirin sonunda Hərbi Akademiyanın rəhbərliyi və müəllim heyəti oyunçularla birlikdə xatirə şəkli çəkdirdilər.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

*Düşüncələr*

# May ovqatı

*Əziz dost, zaman qəribə və qiymətli məfhum deyilmi? Zaman elə bir məfhumdur ki, açıqlanması, aydınlıq gətirilməsi çətindir. Zaman həyatın, yaşamın, bəşəriyyətin əvvəldən sonadək simasındadır. Bizim dünənimizlə bu günümüzü birləşdirən "Cəngi", "Heyratı", "Yallı"... kimi əsərlər qəlbimizi qürurla, sevinclə, mərdliklə silələyir. Bu musiqi əsərləri könlümüzün min bir telini titrədir. "Üz ifadəsi güzgü ilə, qəlb isə danışıqla izhar olar" deyirdi Demokrit. Məncə bu musiqilər də xalqın ruhunun dedikləridi, ifadə edə bilmədiyimiz fikirlərdi.*

İnsanlar bir-birinə oxşamadığı kimi onların zaman haqqında düşüncələri də fərqlidir. Məsələn, "May" ayı ağır ay olaraq bir çoxlarının düşüncəsində əsassız olaraq yer alıb. May ayı "yaz və əmək", "beynəlxalq tütünsüz həyat bayramı"dır. Həmçinin May tariximizdə "Qələbə", "Respublika" günü kimi əbədiləşib. Bu gözəl ay niyə təhtəlşüurumuzda belə iz buraxıb?..

Qışqırıqlar, sükut, al qan, boynu bükük qərənfillər, müharibə, kədərdən dili tutulmuş Zaman... Həmin ay "Tarix" məsuliyyətinin necə çətin olduğunu anladı. 1918-ci il mayın 1-i ermənilər Qubaya daxil olaraq qırğınlar törətdilər. Neçə-neçə həyat, arzu, istək söndü həmin an. "Zaman" dondu onların yumulan göz qapaqlarında.

1992-ci il mayın 8-i... Şuşa, Şuşamız. Heç vaxt bu qədər ağır, dəhşət, iztirab, inilti səsi gələn zaman kəsiyi görməmişəm. Şuşa şəhəri həmin zaman kəsiyində göz yaşı tökdü öz taleyinə, ağladı, sızladı, köksünü ötürdü. "Göz yaşlarını silərək dik dayandı. Qəlbindəki nisgili yüngülləşdirməyə çalışdı. Şuşa bilir ki, yaman günün ömrü azdır. Şuşa bizi gözləyir.

1992-ci il mayın 18-i... Laçının qara taleyi...

Bu tarixdə də yer-göy susdu, musiqilər, bayatılar şəhid qanları ilə birgə meydanlarda axdı. "Ana laylası", "ana fəryadı" səsləndi. Cismən ölsələr də, bu insanlar ruhən və mənən yaşayırdılar ən əziz məkanda: qəlblərdə.

2016-cı ilin aprel tarixi... Tarix sevindi həmin an qəhrəman azərbaycanlı oğullarının şücaətinə, mərdliyinə, qələbəyə inamına, Vətən sevgilərinə. Həmin gün daha çılğınlıqla səsləndi "Cəngi"lər, qəhrəmanlıq nəğmələri. Bayrağımız bu qələbədən qətiyyətlə dalğalanırdı Lələtəpədə, Bayraqtəpədə.

İnanırıq ki, qələbələr, zəfərlər, alınan torpaqlarımızın zaman deyilən düsturu tarixin səhifələrinə yazılacaq!..

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun II kurs tələbəsi**

Baş leytenant Rəşidli Fəqan Rəfail oğluna verilmiş zabitin şəxsi vəsiqəsi, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Qurbanov Fərhad İsmayıl oğluna, əsgər Quliyev Anar Rasim oğluna və əsgər Sultanlı Mirmahmud Saleh oğluna verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 415
Nüsxə 3950